

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 237 (23.399)

*17 dekabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edib.

Ölkəmizdə elektrik enerjisinin istehsalının, istehsal güclərinin artdığını vurğulayan Prezident İlham Əliyev son illərdə bir çox yeni elektrik stansiyalarının tikildiyini, hazırda Azərbaycanın özünü elektrik enerjisi ilə tam təmin etdiyini, eyni zamanda ixrac imkanları yaratdığını qeyd edib. Bu il "Şimal-2" Elektrik Stansiyasının fəaliyyətə başlamasının önəmli hadisə olduğunu deyən dövlət başçısı gücü 400 meqavat olan stansiyanın enerji potensialını böyük dərəcədə artırdığını, stansiyanın bütün standartlara cavab verdiyini bildirib.

Ölkə Prezidenti İlham Əliyevin stansiyanın fəaliyyəti ilə bağlı suallarını cavablandıran Baba Rzayev hazırda stansiyanın tam gücü ilə, 380 meqavatla işlədiyini deyib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına "Azərbaycan" İstilik Elektrik, Mingəçevir Su Elektrik stansiyalarında görülən işlər, Bakı-Quba magistralının sağ tərəfində – təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının layihə-smeta sənədləri haqqında məlumat verib.

Görüşdə Prezident İlham Əliyev gələn il də "Azərenerji" və onun bütün kollektivinin öz vəzifə borcunu ləyaqətlə yerinə yetirəcəyini və Azərbaycanda enerji dayanıqlılığının daim təmin ediləcəyini diqqətə çatdırıb.



## Muxtar respublika paytaxtı fasiləsiz istilik və mavi yanacaqla təmin olunub



*Hələ bir neçə il bundan əvvəl Naxçıvan şəhərində yaşayış və inzibati binaların çoxluğu nəzərə alınaraq müasir istilik sistemləri qurulub, ilin soyuq aylarında sakinlərin rahat yaşayışı, təşkilatlarda çalışan əməkdaşların səmərəli iş fəaliyyəti təmin olunub. Hər il payız-qış mövsümünə hazırlıqla əlaqədar istilik sistemlərində aparılan məqsədyönlü tədbirlər nəticəsində bu sahə ilə bağlı heç bir problem yaşanmır. Cari ildə də bu istiqamətdə tədbirlər uğurla həyata keçirilib və bunun nəticəsində qarşıdan gələn soyuq qış aylarına hazırlıq işləri tam yekunlaşıb.*

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, noyabr ayının 15-dən etibarən paytaxt şəhərimizdə yerləşən bütün yaşayış və inzibati binalar mövsümə uyğun fasiləsiz istiliklə təmin edilib. Bu məqsədlə öncə bütün qazanxanalara baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan boru və siyirtmələr yenisi ilə əvəz olunub. Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış ayları ərzində Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb.

Məlumatda o da qeyd olunur ki, istilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadaları fəaliyyətə başlayıb, inzibati və ictimai yaşayış binalarının istiliklə təhlükəsiz şəkildə təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Qeyd edək ki, hazırda Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binası, eləcə də 7 min 634 mənzil və 30 inzibati bina fasiləsiz olaraq istiliklə təmin edilir.

Muxtar respublikada qaz təsərrüfatı da daim diqqətdə saxlanılır. Nəticədə, ilin bütün fəsillərində yaşayış məntəqələri fasiləsiz olaraq mavi yanacaqla təmin edilir. Ötən illərdə olduğu kimi, 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq tədbirləri də vaxtında və uğurlu şəkildə icra olunub.

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətindən aldığımız məlumata görə, təbii qaz istehlakçılarının fasiləsiz və təhlükəsiz qazla təchiz edilməsi məqsədilə korroziyaya uğrayan yeraltı qaz kəmərləri yeniləri ilə dəyişdirilib və qaz sızmaları aradan qaldırılıb. Bu işlərin mütəmadi olaraq aparılması nəzarətə götürülüb. Qaz nəqli sistemi üzərində olan bağlayıcı avadanlıqlar yoxlanılıb, ehtiyac duyulanlarda cari təmir işləri aparılıb, istismara yararsız olanlar yenisi ilə əvəz edilib.

Məlumatda deyilir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində istismarda olan yaşayış evlərinin, ictimai təyinatlı binaların və istehlakçılar tərəfindən istismar edilən obyektlərin daxili qaz kəmərlərinə, avadanlıqlarına qrafik üzrə texniki baxış keçirilib, tələb olunan xidmət işləri müvafiq qaydada aparılıb. Tabeli qaz istismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işlərinə diqqət artırılıb. Qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində yaradılan ixtisasartırma kurslarına işçilərdən 15 nəfər cəlb olunub.

Xidmət yerlərində nəzarət tədbirləri gücləndirilib, yoxlama-nəzarət komissiyası tərəfindən reydlər keçirilərək "Qazdan istifadə qaydaları"nın tələblərinə istehlakçılar tərəfindən riayət olunması yoxlanılıb və ortaya çıxan nöqsanlar aradan qaldırılıb. Cari ilin 11 ayında birliyə şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından 5 min 27 ədəd çağırış daxil olub, bu çağırışlara vaxtında gedilib, bütün işlər keyfiyyətlə yerinə yetirilərək təbii qazın nəqli bərpa edilib.

Məlumatda o da qeyd olunur ki, 2019-cu ilin 11 ayı ərzində müraciətlərə əsasən ev və obyektlərə yeni qaz xətləri çəkilərək istismara verilib. Əhali üzrə 230 ədəd fərdi ev qazlaşdırılıb və qeyri-əhali üzrə 25 ədəd müxtəlif markalı qaz sayğacı quraşdırılıb.

Qarşıya qoyulan vəzifələrin ardıcıllıqla yerinə yetirilməsi, qabaqlayıcı tədbirlərə ciddi önəm verilməsi, təsərrüfatlarda nəzarət sisteminin gücləndirilməsi, mal-material ehtiyatının yaradılması və görülən digər işlər belə deməyə əsas verir ki, qış fəslində muxtar respublikada istilik və mavi yanacaqla təminatda fasilələr olmayacaq.

**Pərviz HACILI**

## Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyi təsis edilib



*Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyinin təsis konfransı keçirilib.*

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev təsis olunan Ailə Təsərrüfatları İctimai Birliyinin qarşısında duran vəzifələri diqqətə çatdırıb, fəaliyyət prinsipləri barədə məlumat verib. Qeyd olunub ki, birliyin yaradılmasında məqsəd muxtar respublikada ailə təsərrüfatı ilə məşğul olan şəxslərə informasiyaların verilməsi, maddi dəstək göstərilməsi, həmçinin onların potensialından cəmiyyətin iqtisadi həyatında səmərəli istifadə olunmasını təmin etməkdir. Birliyə muxtar respublikadakı ailə təsərrüfatçıları arasından daha çox fəallıq göstərənlər üzv qəbul edilib. Bildirilib ki, həmin təsərrüfat sahibləri birliyin işində də fəallıq göstərməlidirlər.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov qeyd edib ki, ailə təsərrüfatı məhsullarının tanıdılması məqsədilə ötən dövrdə Naxçıvan Biznes Mərkəzindəki sərgi salonunda 45 ailə təsərrüfatının 108 növdə, 140 çeşiddə məhsulu nümayiş olunub. Eyni zamanda istehsal edilən məhsulların satışı üçün Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında "Ailə təsərrüfatı məhsulları" festivalları təşkil olunur. Bu da təsərrüfat sahiblərinin məhsullarının satışına müsbət təsir edir. Nazir ailə təsərrüfatlarına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlıq edib.

Sonra birliyin idarə heyəti sədrinin, sədr müavini və idarə heyətinin seçilməsi təklifləri irəli sürülüb. Səs çoxluğu ilə Şərur rayonunun Düdəngə kənd sakini, ailə təsərrüfatçısı Mübariz Şirəliyev birliyə sədr, Babək rayonunun Naxışnərgiz kənd sakini, ailə təsərrüfatçısı Qəzənfər Qurbanov sədr müavini seçiliblər. 8 ailə təsərrüfatçısı isə birliyin idarə heyətinə daxil edilib.

Konfransda birliyin nizamnaməsi qəbul olunub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının vaxtından əvvəl maliyyələşdirilməsi başa çatıb

*Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar dövlətin iqtisadi, eyni zamanda sosial müdafiə sahəsində qarşıya qoyduğu hədəflərin uğurla gerçəkləşdirilməsinə geniş imkanlar yaratmışdır.*

Bu proseslərdə özünəməxsus yeri olan muxtar respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər, qəbul olunmuş dövlət proqramlarının müvəffəqiyyətli icrası iqtisadi və sosial sahədə davamlı inkişafı təmin etmişdir. Əhalinin bütün təbəqələrinin, o cümlədən cəmiyyətin həssas qrupu sayılan əmək pensiyaçılarının rifah halının yüksəldilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər görülür.

Əmək pensiyaçılarının sosial müdafiəsinə və onların maraqlarının təminatına yönələn növbəti tədbir kimi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən dekabr ayı üçün bütün növ əmək pensiyalarının ödənilməsinin maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılmışdır. Tələb olunan vəsait fondun xəzinə hesabından müəyyən olunmuş qrafikdən əvvəl pensiyaçıların plastik bankomat kart hesablarına və ya poçt ünvanlarına köçürülməklə pensiyaların maliyyələşdirilməsi yekunlaşdırılmışdır. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də ödənilməsi başa çatdırılmış, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi təmin edilmişdir.

Təyin olunmuş əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılmışdır. Muxtar respublikanın kəndlərindəki əmək pensiyaçıları isə bununla yanaşı, yaşadığı məntəqədən kənara getmədən ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını əldə etmişlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bundan sonra da əmək pensiyaçılarının sosial rifahının yüksəldilməsi üzrə müəyyən olunmuş işlərin icrası sahəsində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq və bunun üçün mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası – 95

# Azərbaycanın ürəyidir NAXÇIVAN

*Beşminillik tarixin ərməğanı, qədim mədəniyyət ocağı, füsunkar təbiət mənzərələri ilə əsrarəngiz cənnətməkan, Azərbaycanın döyünən ürəyi Naxçıvan. Uca dağları, qocaman qayaları ilə yaşıd folkloru, milli dəyərləri, zəngin mətbəxi ilə bu təbiətin əkizi özü haqqında özü söhbət açır.*



Gəlin bu diyara... Gecələrinin ulduztək sayrışan işıqlarının büllur dənizə bənzər sularında Nuhun gəmisinə əyləşin, "Dünya tufanı"nı dinləyin bu diyardan, o, sizə minilliklərdən danışacaq. Nuhun gəmisi ilə yaşıd olduğundan, Gəmiqayanın sirrindən, İslam mədəniyyətinin beşiyini yürgələməsindən, Manna, Midiya, Atropatena, Əhəmənilərə, Ərəb xilafətinə, Xürrəmilər hərəkatına, Salarilər, Rəvvadilər, Səlcuqlara şahidliyindən, bu məmləkətin qəlb döyüntüsü Naxçıvan şəhərinin 40 ilədək Atabəylər dövlətinin paytaxtı olmasından danışacaq. XIII əsr monqol işğalından, Hülakülər, Elxanilər dövründən, XIV əsrin Qızıl Ordasının Toxtamışından, Əmir Teymurun Əlincəyə 14 illik qara sevdasından danışacaq. Naxçıvanda intişar tapmış hürufilik təriqətindən, bu təriqətin yaradıcısı Fəzlullah Nəiminin Əmir Teymurun oğlu Miranşah tərəfindən edamına şahidliyindən söz açacaq. Dinlədikcə onun söhbətlərini nənələrimizin soyuq qış gecələrində isti soba başında söylədikləri doyumsuz nağılların qəhrəmanlarını tapacaqsınız bu diyarda. Müharibələr, işğallar, mübarizələr, müdafiələr, qəhrəmanlıqlar əsr-əsr bu yurdun tarixini, bu gözəl coğrafi mövqeyə həsədi, onu əldə etmək istəklərini qoyur ortaya. Səfəvilər dövlətinin Naxçıvanı fəth etdiyini, XVI-XVII əsrlərdə Səfəvi-Osmanlı müharibələri ucbatından əldən-ələ keçdiyini, dəfələrlə qarət olunaraq dağıdılmasını "xatırlayır" bu diyar. Naxçıvan xanlığı dövründən, bu xanlığın paytaxtı olmasından, Kəngərlilərdən bəhs edir, Türkmənçay, Qars, Moskva müqavilələrinə münasibətini bildirir. Erməni daşnaklarının başına gətirdikləri oyunları hər daşına, qayasına hopan faktlarla səsləndirir, Türk-Araz Respublikasının, Naxçıvanın muxtariyyətinin yaradılmasının səbəblərini açıqlayır bu gözəlliklər yurdu. Bu söhbətlərdə bəzən çarəsizliklər, bəzən haqsızlıqlar, bəzən də mübarizlik, əyilməzlik duyulur.



Danışır Naxçıvan, saatlarla olanlara-keçənlərə şahidliyindən danışır... Bədxah qonşusu Ermənistandan, onların torpaq iddialarının heç bitməyib, əsrlərlə davam etməsindən, şəhidlərindən, oğul həsrətli ata-analardan, ata həsrətli uşaqlardan söz açır. 70 il sovet imperiyasının buxovlarında əzilən diyar kimi danışır. Naxçıvanın ermənilər tərəfindən blokadaya salındığı 1990-cı illərdən danışır. Blokadanın ilk illərində insanların üzləşdiyi çətinliklərdən, məşəqqətlərdən, məxsus olduğu Azərbaycanının müstəqilliyi uğrunda buradakı mübarizələrindən, bu diyarın rolundan, mövqeyindən, ulu öndər Heydər Əliyevin Yaradanın bu torpağa bəxşişi, bu torpağın övladının millətinin, dövlətinin xilaskarı olduğundan danışır.

Gəzin qarış-qarış bu diyarı, dinləyin söhbətini... Muxtariyyətinin 95-ci, müstəqilliyinin 28-ci, blokadalı həyatının 29-cu və blokadalı-inkişaflı, tərəqqili dövrünün 24-cü ilini yaşayan bu diyarı dinləyin. Addımlayın səkilərlə, küçələrlə, bu qədim diyarın hər addımda şəhərində, rayonunda, kəndində təmənnasız baxa biləcəyiniz muzeyləri – Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı, Tarix, həmçinin Ədəbiyyat, Xatirə, Cəmşid Naxçıvanski muzeyləri, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Arazın ev-muzeyləri, Bəhruz Kəngərli, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Xalça, Açıq Səma Altında muzeyləri, yurdumuzun bölgələrinin salnaməsi olan tarix-diyarşünaslıq muzeyləri ulu keçmişinin, ədəbiyyatının, mədəniyyətinin daşlaşmış səhifələrini vərəqləyir, özündən danışır. Azərbaycan dramaturgiyasının təməl daşı olduğunu söyləyir. Bu yurdu kəlmə-kəlmə, misra-misra anladır.



Nuh Peyğəmbərin məzarı, Xan sarayı, Naxçıvanqala, Əlincəqala, Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, Xanəgahı, Buzxanaları, qədim hamamları ilə tarixin özüdür Naxçıvan! Bütün bunların fonunda müasir universitetləri, kitabxanaları, kinoteatrları, yaşayış binaları, park, xiyabanları, müasir tikililəri ilə qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsini seyr edəcəyiniz məkandır Naxçıvan! Bu diyar hər addımda tarixindən söhbət açır. Xan sarayına gəlin, Naxçıvan xanlarının bu möhtəşəm iqamətgahında xanlar sülalələri – Kəngərlilərlə, Naxçıvanskilərlə tanış olun. Bu heykəllər şəhərində Dədəmiz Qorqudun qopuzunu sinəsinə sıxıb söylədiyi nəsihətlərini, Koroğlunun Misri qılıncını siyirib igidlik, qəhrəmanlıq dərslərini, Babəkin azadlıqdan gözəl başqa heç bir şeyin olmaması barədə mübariz söhbətlərini dinləyin. İslam mədəniyyətinin beşiyi Naxçıvan qədim İmamzadə, məscid və pirlərdən söhbət açır. Ulu Yaradanın möcüzə əsəri olan "Əshabi-Kəhf"lə ümidlərin, pənahların, niyyətlərin, arzuların, gerçəklərin ünvanı olan Naxçıvan!

Qədim yallılar yurdudur Naxçıvan. Şərurunun el yallıları ilə xalqın etnoqrafiyasının güzgüsü, folklor qaynağı, festivallar diyarıdır Naxçıvan. Bu diyar ərlər, ərənlər oylağı olan Naxçıvanqaladan zaman-zaman söhbət açdıqca bu gün burada milli dəyərləri, adət-ənənələri, əkinçilik mədəniyyəti ilə bağlı keçirilən festivallar, cəngi üstündə köklənmiş gənclərimizin fləşmobları keçmişlə müasir dövr arasında möhtəşəm bir körpü salır. Bu körpü gəncləri əcdadlarımıza qonaq aparır. Gənclər onların söhbətlərini dinləyib, nəsihətlərinə qulaq asdıqca bu diyarın layiqli övladlarına çevrilirlər. Bütün dövrlərdə elm məbədi sayılan, hər il yüksək ballarla tələbə adını qazanan gəncləri ilə Azərbaycan təhsilinin qürurudur Naxçıvan! Universitetlərində, kolleclərində yetişdirdiyi sabahın qurucularının himayədarı, xarici ölkələrdən bu elm ocaqlarında təhsil almağa gələn gənclərə açıq qapıdır Naxçıvan! İdmanın geniş meydanı, şahmata – dünyanın zəka sahiblərinə qucaq açan, beynəlxalq çempionatlar mərkəzidir bu diyar. Gənclərin asudə vaxtlarını, istirahətlərini qoynundakı zəngin fondlu kitabxanaları, kinoteatr, kafe, park, Əyləncə adası, istirahət mərkəzləri ilə təşkil etməklə yenə də özündən söhbət açdıqca köksünə sığdırdığı "Qızlar bulağı"ndan – gənclərin əhd-peyman ocağından, isti yayın sərin guşəsi "Bazar gölü"ndən – var olanlardan, yaradılanlardan danışır. Gənclər ilə bərabər, yaşlı insanlara da qayğı bəsləyir bu diyar. Onlara güllərin-çiçəklərin, yaşıllıqların ağuşuna aldığı park və xiyabanlarda nəvə-nəticələri ilə gözəl istirahətli xoş saatlar yaşadır. Təqaüdçülər evinin qapıları insanların üzünə açmaqla buranı yaşlıların görüşmək, söhbətləşmək, paylaşmaq ünvanına çevirib.



Dəniz səviyyəsindən yüz metrlərlə yüksəklərə sığınan, yaşılın bütün tonlarını dağına-çəməninə səpən, doyumsuz gül-çiçəyi, buz bulaqları, heyrətamiz havası ilə qonaqlarını salamlayan Batabatın, Göygölün anasıdır Naxçıvan! Dörd bir tərəfini, sanki igidlərinin qızını-gəlinini qoruyurmuş kimi saran uca dağlarının zirvəsindən buludlarla öpüşən diyardır Naxçıvan. "Şişpapaqlı" bu dağların uca zirvəsindən daşların bağrını yara-yara süzülən, torpağın altından qaynayıb çağlayan 230-dək buz bulaqları, su mənbələri ilə süfrələrin yaraşığı, şəfa ocaqları, həm də təbii və mineral sular muzeyidir Naxçıvan. "Badamlı"sı, "Sirab"ı, "Vayxır"ı, "Darıdağ"ı, "Nəhəcir"i, "Gülüstan"ı ilə dünyanı gəzən bir bəxtəvərdir Naxçıvan! Dünyanın neçə-neçə ölkəsindən yuxarı tənəffüs yolları, ağciyər xəstəlikləri və allergiyalardan əziyyət çəkib Duzdağ Fizioterapiya Mərkəzinə – bu duz qalereyasına gələnlərə bir udum nəfəslə şəfadır Naxçıvan!

Dağlarının-dərələrinin yetirib-bitirdiyi saysız-hesabsız nemətlərin hər biri unudulmaz damaq dadıdır. Bağ-bağatlarının bu yerlərin bol oksigenli, təmiz havasından, saf suyundan ərsəyə gələn yüz çeşidli meyvəsi – alması, heyvası, göycəsi, cəvizi, badamının dad-tamı bir başqa, görünüşü bir başqadır. Torpaqdan boyverən min adda, min bir dadda, hər biri bir dərdin dərmanı olan bitkilərin – kəklikotunun, həmərsinin, yemişanın, baldırğanın, yarpızın, nanənin, qantəpərin, vətənidir Naxçıvan! Təbiət gözəli Ordubadla qürur duyan, Şahbuzunun hüsnünü oxşayan, alınmaz qalası Sədərəklə öyünən, Culfasını Arazın nəğməsi ilə böyüdən, Babəkinə xalqının igid övladının adını verən, Kəngərlisini – sonbeşiyini bağrına basan müqəddəs anadır Naxçıvan! Paytaxt şəhərinin qədim məhəllələri – Ağabəylilər, Atabəylər, Anbar, Cığıllı, Cığatay, Çaparxanlı, Dabbaqxana, Dizə, Əlixan, Xıncov, Xoylu, Kəngərli, Qala, Qaraağac, Qurdlar, Şahab, Sallaqxana, Sarvanların hər biri bu qədim şəhərin bir tarixi guşəsi, bir sənətkarlıq ocağı, özünəməxsus adət-ənənəsi olan bir bölgəsidir.



Bu yurdun zəhmətsevər, torpağına, elinə bağlı insanlarının həmdəmidir Naxçıvan. Köksündə əkinçiyə-biçinçiyə yer verən, taxıl zəmisi, ətirli təndir çörəyidir, göz baxdıqca uzanan, insanların bir qoyub min götürdüyü bərəkətli torpaqdır Naxçıvan! Dağlarının, düzlərinin min adlı, min bir dadlı nemətləri ilə hər bir sakininə ruzi payı ayıran ata ocağıdır Naxçıvan. Ulu Tanrının insanlar üçün ruzi mənbəyi yaratdığı arıların vurulduğu, aşiq olduğu məkandır Naxçıvan! Yaylaqlarında, obalarında bol yaşıl otlarıyla qoyun-quzusunun bol südünü yağa, pendirə, qatığa, şora çevirən kənd adamlarının ehtiyacıdır Naxçıvan! Təbiətinin rəngarəng gül-çiçəyi, bitkiləri ilə boyadılan əlçim-əlçim yunun hanalarda sıralanan ipliyi, xalçalara vurulan min bir ilmə, naxış, hər biri tarixin bir səhifəsi olan qədim xalçalarına həkk olunan milli ornament, butadır Naxçıvan! Qonaqpərvər, xoşxasiyyət insanların yurdudur bu diyar! Milli mətbəxinin məşhur ət qovurması, əriştəsi, qayğanağı, qaysavası, kətəsi, lavaşı, çaşırı, baldırğanı ilə damaq dadıdır Naxçıvan!

Bu diyar "Ana dili" abidəsidir, qoruyur ana dilinin saflığını. Tarixini, mədəniyyətini öz adında yaşadan "Gəlinqaya", "Araz", "Dərələyəz", "İpək yolu", "Reyhan", "Büllur", "Təbriz" yeni gənc ailələrin qurulduğu, qonaqlarını ağırladığı ünvanlarıdır bu diyarın. "Zümrüd", "Dəyirmançı", "Qədim dünya", "Görüş yeri" dost-tanışlarını alnıaçıqlıqla qonaq etdiyi kafelər, "Cahan", "Dan yeri", "Naxçıvan", "Reyhan", "Çəmən" alış-veriş mərkəzləri və marketləri insanlara yüksək səviyyədə göstərilən xidmətlərin ünvanıdır.

Naxçıvan sakinləri kimi qonaqlarına, buraya üz tutan turistlərə yanlarında heç bir bələdçi olmadan özündən söhbət aça, danışa bilir. Təyyarədən enib, hava limanının möhtəşəm binasından bu diyara üz tutanları burada güllər qarşılayıb, qayıdarkən də güllər yola salır. O güllər illərdir, zəhmətin göz yaşları – alın təri ilə suvarılıb, gözoxşayan olub. Bu yolda yurdun əzəmət simvolu olan Haçadağının modeli ilə qonaqlarını salamlayır, "xoş gəlmisiniz", – deyir Naxçıvan! Dağ qürur, müqəddəslik, tarix, yaddaş deməkdir. Bunlardan bəhs edən həmin model bu torpaq haqqında ilk təəssürat yaradır. Naxçıvan sakinlərinin məftunu olduğu kimi, qonaqlarının da xoş təəssüratlarının diyarıdır. İstirahət, gəzmək üçün hər il seçim edilən, hər kəsin heç də hər yerdə rast gəlmədiyi, 5000 il yaşlı, keçmişinə sadiq, bu günü heyran edən, qonağını yola salarkən "bir də mənə dön", – deyən, danışan diyardır Naxçıvan! Bir sözlə, hər şeyi ilə, bütövlükdə, hüzurdur Naxçıvan!..

Mətanət MƏMMƏDOVA

# “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda keçirilən müsabiqənin qalibləri mükafatlandırılıb

***Dekabrın 16-da “Görüş yeri” kafesində Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda keçirilən müsabiqənin mükafatlandırma mərasimi olub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək bildirib ki, 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbovun rəhbərliyi ilə qısa zamanda Naxçıvanda ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqətin real nümunəsi yaradılmışdır. Bu gün Naxçıvan Muxtar Respublikası 95 illik tarixi inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrünü yaşayır. Ali Məclis Sədrinin rəhbərliyi ilə son illərdə muxtar respublikada bütün sahələrdə inkişafın əsası qoyulub, Naxçıvan kompleks və davamlı inkişaf mərhələsinə yüksəlib. İnkişafın Naxçıvan şəhərindən tutmuş muxtar respublikanın ən ucqar yaşayış məntəqələrinə qədər olan təzahürü hər bir yaradıcı insanın fəaliyyətində öz əksini tapıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq edilib. Bu münasibətlə bir sıra silsilə tədbirlər keçirilib ki, bu tədbirlərdən biri də “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsidir.






Qeyd olunub ki, muxtar respublikada yaradıcı təşkilatların fəaliyyətləri üçün də geniş imkanlar yaradılıb. Yaradıcı insanların müasir iş şəraiti ilə təmin olunması, əməklərinə yüksək qiymətin verilməsi, onların ölkəmizin, eləcə də muxtar respublikanın fəxri adları, yüksək dövlət mükafatları ilə təltif olunması bir daha bunu təsdiq edir. Muxtar respublikada yaradıcı insanlar sabitliyi, inkişafı, quruculuğu tərənnüm edirlər. Bu gün keçirilən müsabiqənin də əhəmiyyəti məhz bundan ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin diqqət və qayğısı ilə həyata keçirilən tədbirlər Naxçıvanın inkişafının, quruculuğunun, sabitliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər yaradıcı insanlar üçün geniş mövzu seçimidir.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında qeyd edib ki, fond 2019-cu il ərzində də gənclərin müxtəlif layihələrinin həyata keçirilməsini dəstəkləyib, həmin layihələrdə onların intellektual inkişafı, asudə vaxtlarının səmərəli təşkil olunması və müxtəlif layihələrdə birgə iştirakları ön plana çəkilib. Muxtar respublikada ədəbi prosesin və bədii yaradıcılıq işinin gücləndirilməsi, bədii tərcümənin inkişaf etdirilməsi və bu sahədə istedadlı gənclərin müəyyən olunması məqsədilə II muxtar respublika tərcümə müsabiqəsi, “Naxçıvanı tanıyaq” devizi altında gənclərin muzeylərə ekskursiyası, gənclər arasında müxtəlif intellektual oyunlar, kitab müzakirələri, “İnteqrasiya” inteqrativ-intellektual oyunu üzrə “Muxtariyyət kuboku”, “Naxçıvandan Konyaya bir körpü: Nemətullah Naxçıvani” adlı beynəlxalq tədbir, “Naxçıvan marafonu”, “Novruz qatarı”, “Nəsimi həftəsi”, “Gənclik səhnəsi” və intellektual oyunlar üzrə çoxnövçülük turnirləri keçirilib. Bildirilib ki, fond tərəfindən “Naxçıvan Muxtar Respublikası – 95” devizi ilə silsilə tədbirlər də reallaşdırılıb. Bu tədbirlər sırasında “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsinin xüsusi yeri vardır. Müsabiqəyə 42 qəzet məqaləsi, 71 teleradio materialı, 2 ədəbi yaradıcılıq nümunəsi, 7 rəsm əsəri, 2 memarlıq işi, 6 sayt məqaləsi təqdim olunub.

Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Xanım Rüstəmzadə deyib ki, biz gənc nəslin nümayəndələri təkcə muxtar respublikanın deyil, ölkəmizin ictimai-siyasi, mədəni həyatında öz fəallığımızla seçilməyə çalışırıq. Ölkəmizdə hər bir gəncə inam və etimad göstərilir. Ən ali tribunalarda, müxtəlif beynəlxalq qurumlarda, siyasi və iqtisadi arenalarda gənclərimiz Azərbaycanı layiqincə təmsil edirlər. Bu imkanlar isə, ilk növbədə, Naxçıvanın bugünkü və gələcək inkişafında yaxından iştirak etməyə, vətənpərvər ruhda formalaşmağa, intellektual və yaradıcılıq potensialımızı ortaya qoymağa geniş imkanlar açır. Xanım Rüstəmzadə yaradılan şəraitə görə gənclər adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Sonra müsabiqənin qalibləri elan olunub.

“Şərq qapısı” qəzetinin baş redaktor müavini, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədova ilə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin baş rejissoru Fərhad Zamanbəyovun birgə hazırladıqları, Azərbaycan, ingilis və rus dillərində təqdim olunan “Azərbaycanın ürəyidir Naxçıvan” filmi birinci, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Xanım Rüstəmzadə, “Şərq qapısı” qəzetinin müxbiri Gülcamal İbrahimova ikinci, şair Elxan Məmmədov, “Nuhçıxan” İnformasiya Agentliyinin əməkdaşı Anar Tağıyev və memar İsmayıl İsmayıllı üçüncü, “Şərqin səhəri” qəzetinin redaktoru Muxtar Rzazadə, “Naxçıvanın səsi” radiosunun əməkdaşı Səriyyə Alməmmədova, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Türkanə Ağayeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov həvəsləndirici yerlərə layiq görülüblər. Qaliblərə Gənclər Fondunun diplomları və pul mükafatları təqdim olunub.

Qaliblər adından “Şərq qapısı” qəzetinin baş redaktor müavini, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədova, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı, rejissor Fərhad Zamanbəyov və şair Elxan Yurdoğlu verilən qiymətə görə dövlətimizə minnətdarlıq ediblər.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri musiqi nömrələri təqdim edib.

# Milli köklər üzərində yeni innovasiyalara doğru

***Günəşin buludlarla gizlənqaç oynadığı, ağacların “göz yaşları”nın selə döndüyü, küləyin “qələbəsini” bayram etdiyi bir payız günündə şəhərimizin qoynunda, yaraşıqlı tikililərin qənşərində boy göstərən, əzəmətli görünüşü ilə gözoxşayan bir ünvana üz tuturam. Ecazkar quruluşları ilə abad küçələri daha da cəlbedici göstərən xiyabanları, fəslin ab-havasına bürünən, qocaman çinar ağaclarının köksünə sığındığı göyqurşağını xatırladan parkları seyr edə-edə yolu nə zaman qət etdiyimin fərqinə belə, varmıram.***

Budur hər gün onlarla bacarıqlı, qabiliyyətli məktəblinin yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün üz tutduğu Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi. Bu mərkəz haqqında ilk təəssüratım yerləşdiyi binanın qarşısında qızılı dona bürünən ağacların ətrafında toplaşan uşaqların maraqlı söhbətindən, aralarındakı kiçik müzakirələrdən yaranır. Bu müzakirələr mərkəzdə məşğələlərin fəal şəkildə keçirildiyini, dərnəklərin uşaqların maraq dünyasına, sözün yaxşı mənasında, hakim kəsildiyini göstərir. Onları maraq dünyalarından ayırmadan ehmalca yanlarından ötüb mərkəzin binasına daxil oluram.

Mərkəzlə tanışlıq zamanı ayrı-ayrı otaqlardakı məşğələ prosesi, eləcə də binanın ikinci mərtəbəsinin foyesində sərgilənən dərnək üzvlərinin əl işləri diqqətimi çəkir, guşəyə tamaşa etdikcə özümü fərqli çalarlarla zəngin, ümid, arzu, istəklərin çağladığı bir ümmanda hiss edirəm. Öyrənirəm ki, burada müxtəlif şöbələr və 39 adda dərnək fəaliyyət göstərir. 35 sağlamlıq imkanları məhdud uşağın da cəlb olunduğu dərnəklərin məşğələləri mərkəzdə və Naxçıvan şəhərinin ümumtəhsil məktəblərində keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2019-2020-ci tədris ilində isə milli və ümumbəşəri dəyərləri özündə yaşadan təsviri sənət növləri və müasir texnologiyaları əhatə edən yeni profilli innovativ Robotexnika, Ağac üzərində oyma, Metal üzərində bədii döymə, Dulusçuluq, Xalçaçılıq, Ebru sənəti, Gimnastika, Qum sənəti, Memarlıq-dizayn, Dram, Mental aritmetik, Sürətli oxu dərnəkləri yaradılıb. Lazımi maddi-texniki baza və xüsusi





avadanlıqlarla təmin edilən dərnəklərin xarakterik xüsusiyyətlərini ayrı-ayrılıqda təhlil etdikdə onların gələcəyimiz üçün nə dərəcədə önəmli olduğu ortaya çıxır.

İlk olaraq müxtəlif inteqrativ təlimlərə, fizika, informatika və riyaziyyat fənlərinə əsaslanan Robotexnika dərnəyinin məşğələsi ilə tanış oluram. Məşğələ vasitəsilə məktəblinin müasir biliklərə, yüksək texnologiyalara marağı günü-gündən artır, şagirddə dəqiqlik, analitik düşünmə, problem həlletmə, qərarvermə, komanda ilə işləmək kimi bacarıqlar formalaşa bilir. Ən əsası isə şagird orta məktəbdə müəyyən sahələr üzrə əldə etdiyi nəzəri bilikləri artırır, onu praktikaya çevirərək real tətbiqetmə imkanları əldə edir. Məşğələlərin müəyyən hissəsi slayd vasitəsilə ingilis dilində aparıldığı üçün bu həm də uşaqların texnologiya elmləri üzrə dil öyrənmə bacarıqlarını da inkişaf etdirir.

Mental aritmetik dərnəyi şagirdlərdə sürətli və dəqiq şəkildə hesablama aparmaq bacarığının artmasını, onlarda riyazi təfəkkürün inkişafını, yaddaşın və qavramanın, həmçinin özünəinam və yaradıcılıq qabiliyyətinin güclənməsini şərtləndirir.

Mütaliə vərdişlərinin formalaşmasını, qısa zaman çərçivəsində çox sayda ədəbiyyat oxuyaraq müfəssəl şəkildə qavramağı çoxu arzu etsə də, hər kəs buna müvəffəq ola bilmir. Məhz, bu mənada, mərkəzdə yeni yaradılan Sürətli oxu dərnəyinin əhəmiyyəti böyükdür. Burada keçirilən məşğələlər zamanla uşaqlarda sürətli oxuma bacarığı ilə yanaşı, onlarda özünəinam, yüksək motivasiya, geniş söz ehtiyatı və oxuduqlarını qısa müddətdə anlama və yadda saxlama qabiliyyətini də inkişaf etdirir. Dərnəkdə əvvəlcə uşaqların diaqnostik qiymətləndirilməsi aparılır, onlarda söz ehtiyatının, diqqət zəifliyinin, dalğınlığın, özünə inamsızlığın olub-olmadığı yoxlanılır. Daha sonra təlim proqramı hər bir uşağa fərqli yöndə fərdi olaraq öyrədilir. Onların sürətli oxuması üçün buna səbəb olan əngəllər aradan qaldırılır və göz bucağı, söz ehtiyatı, xəyal gücü, diqqət, göz yaddaşı inkişaf etdirilir. Uşaqlar sürətli oxuduqda beyin başqa şeylər düşünməyə vaxt tapmır, beləcə, diqqət cəmlənir və bunun nəticəsi olaraq dərketmə qabiliyyəti də artır.

Yeni yaradılan dərnəklərdən biri Ebru sənəti ilə bağlıdır. Rənglərin su ilə rəqsindən yaranan, kağız bəzəmə sənəti sayılan, qədim köklərə malik Ebru müasir dövrdə də öz populyarlığı ilə seçilir. Nəzərə alanda ki, muxtar respublikamızda bu sənət üzrə sayılıb-seçilən sənətkarlar barmaqla sayılacaq qədərdir, o zaman bu dərnəyin nə dərəcədə əhəmiyyətli olduğu aydınlaşır. Məşğələlər vasitəsilə incəsənətə maraqgöstərən, rəsm çəkmək bacarığı olan uşaqlar zamanla bu sənətə yiyələnməklə yanaşı, gündəlik həyatlarında lazım olan müəyyən qabiliyyətləri də inkişaf etdirir, onlarda dərindən düşünmək, xəyal gücünü ortaya qoymaq, dəqiqlik xüsusiyyətləri formalaşır.

Qum sənəti dərnəyi də bu sahəyə marağı olan məktəblilərə püxtələşmələri üçün geniş imkanlar açır. Əvvəlcə uşaqlarda kağız üzərində rəsm çəkmək bacarığı formalaşdırılır, daha sonra işıqlandırılmış şüşə üzərində qumla təsvirin çəkilmə qaydaları öyrədilir. Tədris müddətində uşaqlar müxtəlif fotoşəkillərə baxıb öz fantaziyaları əsasında maraqlı kompozisiyalar işləyirlər. Qum sənəti dərnəyi şagirdlərin, əsasən, müstəqil yaradıcılıq qabiliyyətlərinin inkişafına təkan verir.

Diyarımızın qədim məişətini, adət-ənənəsini özündə yaşadan Ağac üzərində oyma, Metal üzərində bədii döymə, Dulusçuluq, Xalçaçılıq dərnəkləri el sənətlərinin müasir dövrdə inkişafının, respublikada gedən bədii yaradıcılıq proseslərinin davamlılığını, istedadlı və bacarıqlı şagirdlərin yaradıcılıq sahəsi üzrə yetişmələrini təmin etmək məqsədi daşıyır. Buradakı məşğələlərdə gənclərə xalq yaradıcılığı nümunələri, dekorativ-tətbiqi sənətin sirləri öyrədilir. Memarlıq-dizayn dərnəyi şagirdlərdə mühəndislik bacarıqlarının formalaşmasına, onlara düşüncə tərzləri əsasında ən son proqram təminatlarından istifadə etməklə müxtəlif layihələrin hazırlanmasına geniş imkanlar açır. Gimnastika dərnəyi isə uşaqların bu idman növünün sirlərinə yiyələnməsi və fiziki cəhətdən sağlam formalaşmalarına töhfə verir. Dram dərnəyinə aktyorluq istedadı, səs diapazonu, bədii yaradıcılıq qabiliyyəti, intonasiya, hərəkət qaydaları, yeriş, mimika kimi xüsusiyyətlərə malik olan uşaqlar qəbul edilir. Burada uşaqlar oxunması zəruri olan kitabları oxuyaraq mütaliə vərdişlərini formalaşdırmaqla yanaşı, həm də oxuduqlarını səhnələşdirərək və təkrarlayaraq öyrənirlər.

Milli köklər üzərində yeni innovasiyalara doğru irəliləyən yaradıcı uşaqların maraq dünyasından ayrılarkən düşünürəm: – Günümüzdə dünyanın bir sıra ökələrində zərərli vərdişlərlə böyüyən uşaqlarla bağlı narahatlıqlar barədə tez-tez eşidirik. Aparılan araşdırmalar göstərir ki, belə xoşagəlməz vəziyyətlər bəzən valideynlərin etinasızlığı üzündən baş verirsə, bunun əsas səbəbi uşaqlara dövlət qayğısının olmamasıdır. Çox gözəl haldır ki, muxtar respublikada gələcəyimiz olan uşaqlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bunun ifadəsidir ki, diyarımızda Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi kimi onlarla məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Bu müəssisələrdə fəaliyyət göstərən dərnəklərə üz tutan uşaqların fiziki və mənəvi inkişaf səviyyəsi artır, onlarda sağlam həyat tərzi formalaşır. Əminliklə demək olar ki, bu gün Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni yaradılan dərnəklər vasitəsilə bilik və bacarığını inkişaf etdirən azyaşlı uşaqlar gün gələcək, innovativ düşüncəli, geniş dünyagörüşlü sənət və peşə sahibi kimi ölkəmizin mədəniyyətinə, incəsənətinə böyük töhfələr verəcək.

✍ **Nail ƏSGƏROV**

## Seminarda stomatologiya sahəsindəki yeniliklər müzakirə olunub



*Muxtar respublikada stomatologiya sahəsində əldə edilən yeni nailiyyətlər bu sahənin inkişafına, ixtisaslı kadr potensialının artırılmasına lazımi diqqət yetirildiyini göstərir.*

Bu fikir Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan İmplantoloq İctimai Birliyinin təşkilatçılığı ilə "Müasir stomatologiyada modernləşməyə gedən yollar" mövzusunda keçirilən seminarda səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən tədbirdə Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, Azərbaycan İmplantoloq İctimai Birliyi ilə muxtar respublikanın Səhiyyə Nazirliyi arasında sıx əlaqələr qurulub. Nazir hər il Naxçıvanda oxşar tədbirin keçirilməsinin artıq ənənə halını aldığını vurğulayıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada səhiyyə sisteminin inkişafına dövlət qayğısının artırılması, bu sahənin maddi-texniki bazasının, infrastrukturunun yenidən qurulması, mövcud olan və tikilib istifadəyə verilən kənd həkim ambulatoriyalarında stomatoloji kabinələrin yaradılması, onların müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan verir.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, təhsil və səhiyyə sahələrində də ardıcıl tədbirlər həyata keçirilir, ixtisaslı kadrların yetişdirilməsi üçün bütün şərait yaradılır.

Muxtar respublikada tibb sahəsində təhsilin inkişafından danışan rektor qeyd edib ki, 1999-cu ildə universitetin Təbiətşünaslıq fakültəsinin nəzdində Pediatriya ixtisasına 25 nəfərlik tələbə qəbulunun aparılması ilə muxtar respublikada ali tibb təhsilinin təməli qoyulub. Fakültədə 2007-ci ildə Tibbi profilaktika, 2011-ci ildə Müalicə işi, 2012-ci ildə isə Əczaçılıq və Stomatologiya ixtisasları yaradılıb, fakültə üçün yeni implantologiya kabinəsi istifadəyə verilib.

Təhsil müddətində tələbələr praktik vərdişlərə yiyələnmək məqsədilə Naxçıvan Muxtar Respublikasının müasir xəstəxanalarında və Türkiyənin Kayseri Erciyes, Ərzurum Atatürk, Elazığ Fırat, Van Yüzüncü Yıl, Kars Kafkaz, Ankara universitetlərinin Tibb fakültələrinin klinik xəstəxanalarında peşə təcrübələri keçirlər.

Elbrus İsayev vurğulayıb ki, 2003-cü ildən müstəqil fəaliyyət göstərən Tibb fakültəsində hazırda 680-ə yaxın tələbə təhsil alır. Onların 300-dən çoxu xarici ölkə vətəndaşıdır. 2012-ci ildən rezidentura hazırlığına başlanan fakültədə 23 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir, 50-dən çox həkim-rezident muxtar respublikanın xəstəxanalarından tədris-klinik baza kimi istifadə edir.

Belə tədbirlərin keçirilməsinin Naxçıvandakı tibbi kadrların təcrübəsinin və biliklərinin artırılmasına xidmət etdiyini deyən rektor seminarın işinə uğurlar arzulayıb.

Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənov çıxışında Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib, bu konfransların keçirilməsinin yerli həkimlərlə təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb, təşkilatçılara minnətdarlığını bildirib.

Sonra seminarda stomatologiyanın müxtəlif sahələrini əhatə edən mövzularda çıxışlar dinlənilib, müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Tural AĞAYEV**

## Məktəblilər arasında şahmat birinciliyi

***Dünən Naxçıvan Şahmat Mərkəzində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında şahmat birinciliyinə start verilib.***

Naxçıvan şəhər tam orta məktəblərinin III-IV sinif oğlan şagirdləri arasında keçirilən yarış şəxsi xarakter daşıyır. Naxçıvan Şəhər Təhsil Şöbəsi, şəhər Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə keçirilən birincilikdə 17 tam orta məktəbin hər birindən 3 oğlan olmaqla, ümumilikdə, 51 şagird iştirak edir.

Qeyd edək ki, yarış İsveçrə sistemi üzrə 5 turdan ibarətdir. Birinciliyə bu gün yekun vurulacaq.

## Naxçıvan Muxtar Respublikası üzrə 16 dekabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3066,0 | 2640,0 | 426,0 |
| 2. | Babək rayonu | 10877,0 | 7560,0 | 3317,0 |
| 3. | Ordubad rayonu | 1564,0 | 650,0 | 914,0 |
| 4. | Culfa rayonu | 7241,0 | 6240,0 | 1001,0 |
| 5. | Kəngərli rayonu | 5087,0 | 2997,0 | 2090,0 |
| 6. | Şahbuz rayonu | 1414,0 | 1330,0 | 84,0 |
| 7. | Sədərək rayonu | 2249,0 | 1621,0 | 628,0 |
| 8. | Naxçıvan şəhəri | 968,0 | 842,0 | 126,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32466,0** | **23880,0** | **8586,0** |

## Sağlamlıq imkanları məhdud şəxslərə səyyar protez-ortopedik və tibb xidmətləri göstərilib



Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil və məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb.

Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərə tibbi-sosial reabilitasiya xidmətləri göstərilir, onların zəruri sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Bu məqsədlə Naxçıvan Uşaq Bərpa və Əlillərin Bərpa mərkəzlərində göstərilən xidmətlərin həcmi və keyfiyyəti daha da artırılır. Həmçinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərə protez-ortopedik xidmətlərin göstərilməsi də daim diqqət mərkəzində saxlanılır. Həmin tədbirlərin davamı olaraq Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzinin tibbi-texniki və müvafiq həkim heyətinin iştirakı ilə keçirilən səyyar xidmət zamanı məhdud fiziki imkanlı şəxslərə protez və ortez xidmətləri göstərilib, yeni sifarişlər qəbul edilib. Həmçinin sözügedən şəxslər tibbi müayinədən keçirilib, müvafiq tövsiyələr verilib.

Qeyd edək ki, il ərzində muxtar respublikada 200 nəfərə protez-ortopedik xidmətləri göstərilib, onların da 71 nəfərini 18 yaşınadək sağlamlıq imkanları məhdud şəxslər təşkil edir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İdmançımız Avropa birinciliyində bürünc medal qazanıb



*İsrailin Eylat şəhərində 15 və 17 yaşa qədər yeniyetmələr arasında ağır atletika üzrə Avropa birinciliyi keçirilib.*

Yarışda 37 ölkədən 498 idmançı (228 qız və 270 oğlan) mübarizə aparıb. Azərbaycan yığmasının heyətində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliynin nəzdində fəaliyyət göstərən Şərur rayon Ağır Atletika Bölməsinin üzvü Tərmenxan Babayev də öz qüvvəsini qitə birinciliyində sınayıb.

96 kiloqram çəki dərəcəsində mübarizə aparan atletimiz birdən qaldırma hərəkətində 145 kiloqram nəticə ilə 4-cü pillədə qərarlaşıb. Təkanla qaldırma hərəkətində isə daha yaxşı çıxış edən Tərmenxan Babayev 181 kiloqram çəki dərəcəsinin öhdəsindən gəlib və Avropa birinciliyinin bürünc medalını qazanıb.

Toplam 326 kiloqram (145+181) nəticə ilə idmançımız yekun sıralamada 4-cü yeri tutub.

Qeyd edək ki, komanda şəklində yaşı 17-yə qədər olan atletlərimiz ön plana çıxıblar. Belə ki, toplam 558 xal əldə edən bu yaş yığmamız Avropa birinciliyində komanda hesabında 4-cü yeri tutmağı bacarıb.

## Futzal liqasında mübarizə davam edir



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə muxtar respublikada ilk dəfə olaraq dövlət və özəl təşkilatlar arasında keçirilən futzal liqasında 10-cu turun oyunları olub.

Bu turda aşağıdakı nəticələr qeydə alınıb:

"Birlik" - "Ədliyyə Nazirliyi" 8:2
"Lokomotiv" - "Mübariz" 6:2
"Türkiyə Səfirliyi" - "Antiinhisar və İBNDA" 10:4
"Badamlı" - "Qayğı" 19:1
"Penitensiar Xidmət" - "Diplomatik" 18:3
"FHN-Xilasedici" - "Ağbulaq" 4:7
"Günnüt" - "Nəqşicahan Holdinq" 3:18
"Nəqliyyatçı" - "Hava Limanı" 4:7
"Mustanq" - "Cahan Holdinq" 1:6
"Panter" - ƏƏSMN 6:2
"DSMF" - "Zirvə" 3:5
"Prestij" - "Nuhçıxan" 10:1

Qeyd edək ki, turnir cədvəlinin liderləri "Nəqşicahan Holdinq", "Badamlı" və "Penitensiar Xidmət" komandalarının aktivlərində 27 xal var.

✍ **Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

### Naxçıvan Müəllimlər İnstitutu fəlsəfə doktoru hazırlığı üzrə 2019-cu il üçün doktorantura və dissertanturaya qəbul elan edir

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2019-cu il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli 737/S nömrəli Sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

***Büdcə hesabına, qiyabi təhsilalma forması:***

*- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer.*

***Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:***

*- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 2 yer;*

*- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi –1 yer;*

*- Pedaqoji psixologiya – 1 yer.*

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

***Büdcə hesabına, qiyabi təhsilalma forması:***

*- Müəllim hazırlığı və fəaliyyəti – 1 yer;*

*- Sosial pedaqogika – 1 yer.*

***Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:***

*- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;*

*- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;*

*- Pedaqoji psixologiya – 1 yer.*

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Müəllimlər İnstitutunun rektorunun adına ərizə;*

*- kadrların şəxsi-qeydiyyat vərəqi;*

*- tərcümeyi-hal;*

*- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*- iş yerindən xasiyyətnamə;*

*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*

*- xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);*

*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Sənədlərin qəbulu iş günlərində 28 dekabr 2019-cu il tarixədək saat $9^{00}$-dan $17^{00}$-a kimi aparılır.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 2***
***Naxçıvan Müəllimlər İnstitutu***
*Elmi hissə (otaq № 208)*
*Əlaqə telefonları:(+994 36) 544-04-29*
*E-mail: elmihisse@nmi.edu.az*

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 861**